# KİV nümayəndələrinin övladları “Ulduz” Şokolad fabrikində ekskursiyada

İyunun 6-da "Ulduz" Şokolad  Fabriki uşaqlar üçün maraqlı ekskursiya təşkil etmişdi. 15 yaşınadək olan məktəblilər fabrikdə şokaladın istehsal prosesi ilə tanış olublar. Sevdikləri şirniyyatların necə hazırlandığını görmək onlara təsirsiz ötüşməyib.

Gəzintidən qayıdan qızım İnci "indi mən şokoladın necə hazırlandığını bilirəm, amma siz bilmirsiz, bundan sonra marketdən ancaq "Cırtdan" şokoladı alacam" deməsi ilə gəzintinin onun üçün çox maraqlı keçdiyini bildirdi.  "Ulduz" fabriki qatqısız və təmiz "Cırtdan" şokoladlarını  məhz uşaqlar üçün nəzərdə tutub.

Ekskursiya zamanı uşaqlara şokoladın istehsalı barədə ətraflı məlumat verilib. Eyni zamanda fabrikin tarixi və çoxçeşidli məhsullarının istehsal prosesi barədə videoçarx nümayiş etdirilib.  Ölkənin qida sektorunda xüsusi yeri olan "Ulduz" şokolad  fabrikində uşaqlara Avropa avadanlıqları olan ən müasir texnologiya ilə istehsal etdikləri məhsulların dünyanın 20-dən artıq ölkəsinə  ixrac edildiyi barədə məlumat verilib.

Saat 10-dan 13-dək təşkil edilmiş əyləncəli gəzinti balacaların ürəyincə olub. Onlara "Ulduz" və "Ozmo"nun məhsulları hədiyyə edilib. Şokoladın istehsalı və qablaşdırılması, eləcə də  ətrafdakı təmizlik, səliqə-səhman uşaqların ürəyincə olub.

İndi biz də "Ulduz" "xəstəliyinə" tutulmuşuq.

## Keçidlər

1. http://www.azadinform.az/news/a-94076.html
2. http://palitranews.az/news.php?id=38891
3. http://www.sivil.az/cemiyyet-2/kiv-numayendelerinin-ovladlari-ulduz-sokolad-fabrikinde-ekskursiyada-4025
4. http://editor.az/news/88939
5. http://bizimyol.info/news/55132.html